## Texniki komitələrin Moskva şəhərində birgə iclası

2010-cu il 15 mart tarixində «UNİSKAN/GS1 RUS» avtomatik identifikasiya assosiasiyasında standartlaşdırma üzrə MTK 517 «Avtomatik identifikasiya» dövlətlərarası texniki komitənin və «Avtomatik identifikasiya və məlumatların toplanması texnologiyası və biometriya» TK 355 milli texniki komitənin birgə iclası keçirilmişdir. 1999-cu ildə yaradılan MTK 517 texniki komitənin sayca altıncı iclasında, Azərbaycan, Belarus, Qazaxstan, Rusiya Federasiyası və Özbəkistandan olan tamhüquqlu üzvlər və müşahidəçilər iştirak etdilər. Bütün nümayəndələr Milli GS1 təşkilatlarını təmsil edirdilər.



*Şəkildə: Dövlətlərarası Texniki Komitənin iclası zamanı*

GS1 RUS təşkilatının Baş direktoru V.Teleqin MTK 517-nin sədri olaraq, öz çıxışında MTK-nın fəaliyyət sahəsinin genişləndirilməsi və MTK biometriya sahəsində standartlaşdırmayla bağlı məsələlərin də daxil edilməsini qeyd edərək, texnologiyaların inkişafında əsas istiqamətlər barədə ətraflı danışdı. Daha sonra, MTK 517 çərçivəsində «Biometrik identifikasiya» adlı ilk ixtisaslaşdırılmış altkomitənin yaradılması barədə məlumat verildi və qeyd edildi ki, biometriya sahəsində standartlaşdırma üzrə altkomitənin yaradılması bir neçə səbəbdən məqsədəuyğun və zəruridir. Hal-hazırda biometriya bazarı elə bir inkişaf səviyyəsinə çatıb ki, müxtəlif qurğular və proqram təminatlarından istifadə edən sistemlər birləşirlər; müstəqil dövlətlər birliyi ölkələrində şəxsiyyti təsdiq edən xarici sənədlər sistemi tətbiq edilir.

Avtomatik identifikasiya və məlumat toplanması texnologiyaları və biometriya sahəsində standartlaşdırma işlərinin vəziyyəti barədə milli təşkilatlardan: Özbəkitsandan – K.Biserov, Belarusdan – V.Pavlovskiy, Azərbaycandan – V.Əliyev, Qazaxstandan – S.Baxaudinova və başqaları çıxış etdilər. MTK 517 və TK 355 komitələrinin iclaslarının nəticəsi əsasında qəbul edilən qətnamələrdə dövlətlərarası və milli standartların hazırlanmasında ISO/IEC beynəlxalq standartlarının istifadəsinin nə dərəcədə zəruri olduğu bir daha təsdiq edildi.



*Şəkildə: GS1 Azərbaycan cəmiyyətinin baş direktoru V.Əliyevin çıxışı.*

Həmçinin MTK 517-də avtomatik identifikasiya və məlumatların toplanması texnologiyaları və biometriya sahələrində beynəlxalq standartların baxılmasının zəruriliyi qeyd edildi. Bundan əlavə, məsləhət görüldü ki, MDB ölkələrində standartlaşdırma işlərinə Milli GS1 təşkilatları daha geniş cəlb edilsinlər.